# Peşəkar jurnalist, nəcib insan



Tanınmış jurnalist **İdris Hacızadəni** jurnalistika sahəsinə gəldiyim ilk günlərdən tanımışam. O vaxta qədər onun özü ilə şəxsən tanış olmasam da, respublika mətbuatında - nəşr olunan qəzet və jurnallarda çoxlu sayda yazıları nəzərimi cəlb etmişdi. Onun jurnalistikanın müxtəlif janrlarında qələmə aldığı yazıları maraqla oxuyurdum. Yadımdadır, həmkarımın ilk oçerki “Azərbaycan qadını” jurnalında işıq üzü görmüşdü. Oçerk Azərbaycan Dövlət Dram Teatrında gənc aktrisa kimi potensial imkanlarını nümayiş etdirən Şəfiqə Məmmədovadan (“Sənət eşqi, istedad...”), onun qısa zaman kəsiyində teatrda yaratdığı müxtəlif xarakterli obrazlardan bəhs olunurdu. İdris Hacızadənin jurnalist kimi yaradıcılığını izləyərkən məndə belə qənaət yarandı ki, o, əsl peşəkar qələm sahibidir, heç vaxt mövzu qıtlığı çəkmir, rəngarəng həyatımızın müxtəlif sahələrinə həsr etdiyi mətbu yazıları da bunun sübutu idi. Hələ o illərdə qələm dostlarından biri onun məhsuldar yaradıcılığı haqqında belə söyləmişdi: “İdris Hacızadə traktordur, qələmi ilə hey şumlayır...” Tanınmış yazıçı-publisist Fariz Çobanoğlu İ.Hacızadəni “Qələmi ürəyinin başında olan jurnalist” adlandırmışdır. Bu deyimdə böyük məna var. Burada qələmə hörmət ifadə olunur. Əlbəttə, ürəyinin başında olan qələm sahibi ürəkdən gələnləri yazıya almalıdır.

Sonradan İdris Hacızadə ilə şəxsən tanış oldum və biz “Faktlar” qəzetində bir redaksiyada fəaliyyət göstərdik. Xoşqılıqlığı, səmimiyyəti, işgüzarlığı, o cümlədən sadəliyi və savadı diqqətimi cəlb etdi, “Faktlar”ın redaktoru kimi İdris müəllim bütün materialları yüksək jurnalist səriştəsi ilə redaktə edir, artıq söz və ifadələrdən qaçır, dilimizin saflığının qorunmasına, orfoqrafiya qanunlarına əməl olunmasına çalışırdı.

Həmkarım jurnalistikaya gəlməzdən əvvəl, gənclik illərində neftçi işləyib. Belə ki Bakı Neft Texnikumunu bitirib, bir müddət Sabunçu neft mədənlərinin birində “qara qızıl” çıxaranlardan biri kimi çalışıb, işi təriflənib, quyuların tədqiqi üzrə baş operatora qədər yüksəlib, fəal ictimaiyyətçi kimi tanınıb. Amma jurnalistliyə olan həvəsi onu rahat buraxmayıb. Lomonosov adına Moskva Dövlət Universitetinin tələbəsi olmaq arzusu ilə yaşayıb. Sənədlərini həmin ali məktəbə daxil olmaq üçün versə də, müsabiqədən keçməyib. Nəhayət, 1963-cü ildə ADU-nun (hazırda BDU) filologiya fakültəsinin jurnalistika şöbəsinə (əyani) qəbul olunur. Özünü dünyanın bəxtəvəri hesab edir, iş yerinə gedib ali məktəbə daxil olduğu üçün işdən çıxmaq barədə ərizə verəndə, mədən müdiri onu təbrik edib, işdən çıxmamağı və qiyabi surətdə təhsil almasını xahiş etsə də, bir-iki ilə ona qabaqcıl neftçi kimi ev verəcəyinə söz versə də, İdrisə təsir edə bilmir. Axı onun ilk yazısı hələ orta məktəbin 7-ci sinfində oxuyarkən “Azərbaycan pioneri” qəzetində (“Rus dilini sevirəm”) dərc olunmuş, bu, onun jurnalist olmaq arzusunu daha da gücləndirmişdi.

BDU-da - bu qocaman elm ocağında mükəmməl təhsil alan gənc tələbə Mircəlal Paşayev, Nəsir İmanquliyev, Əlövsət Abdullayev, Nurəddin Babayev, Əkbər Ağayev, İnayət Bəktaşi, Şirməmməd Hüseynov, Tofiq Rüstəmov kimi işıqlı simalardan həm bilik, həm də həyat dərsləri alır. O, Azərbaycan jurnalistikasının patriarxı Nəsir İmanquliyevin onun diplom işinin rəhbəri olması və rəhbərlik etdiyi “Bakı” və “Baku” qəzetlərində uzun illər ərzində mütəmadi olaraq fəal əməkdaşlıq etməsi ilə həmişə qürur duyub.

Gənc jurnalist əvvəlcə Azərbaycan Dövlət Kinematoqrafiya Komitəsində nəşr olunan “Mədəni-maarif işi” məcmuəsində fəaliyyətə başlayıb. Sonra da “Kino yenilikləri” qəzeti və “Yeni filmlər” kinobülletenində çalışıb. Bütövlükdə isə yaradıcılığının 10 ilini kino sahəsinə həsr edib. Azərbaycanın tanınmış kino korifeyləri olan Adil İsgəndərov, Hökumə Qurbanova, Mehdi Məmmədov, Möhsün Sənani, Mustafa Mərdanov, Əliağa Ağayev, Nəsibə Zeynalova, Muxtar Dadaşov, Məlik Dadaşov, Həsən Turabov, Həsən Məmmədov, Səməndər Rzayev, Şəfiqə Məmmədova, Şahmar Ələkbərov, Ceyhun Mirzəyevlə mütəmadi ünsiyyətdə olması və onlardan aldığı müsahibələri həyatının unudulmaz anları hesab edir. Şahmar və Ceyhunla uzun illər yaxın dost olmasını həmişə xoş xatirə kimi başqalarına söyləyir.

İ.Hacızadə müxtəlif mətbuat orqanlarında — “İmpuls”, “Məşəl”, “Yeni era” qəzetlərində baş redaktor, “And”, “Gələcək gün”, “Naxçıvan” qəzetlərində, eləcə də “Zəriflik” jurnalında redaktor işləmişdir. İdris müəllim şair kimi də tanınır. “Bahar” adlı ilk şeiri hələ universitetin I kursunda oxuyarkən ali məktəbin divar qəzetində dərc olunmuşdu. O vaxtdan müxtəlif qəzet və jurnallarda bir çox mövzularda şeirləri ilə oxucuların görüşünə gəlib. “Ayıq olun, insanlar” və “Jalə” adlı iki şeirinə musiqi bəstələnib. Keçən il “MBM” nəşriyyatında işıq üzü görmüş “Qayıt, əzizim” kitabına daxil edilmiş şeirlər qələm dostumun şairliyini də təsdiqləyir. Kitabdakı mənsur şeirləri çox xoşuma gəldi. Ümumiyyətlə, İdris müəllimin mənsur şeirlərinin əsasını lirik duyğular, ailəyə, övlada məhəbbət, Xəzərə olan sevgi təşkil edir. Həmin mənsur şeirləri İdris müəllim Azərbaycanda mənsur şeirin banisi, əziz müəllimi, xalq yazıçısı Gülhüseyn Hüseynoğlunun əziz xatirəsinə həsr etmişdir. Bütün bunlara baxmayaraq, İdris müəllim özünü şair hesab etmir. O deyir ki, “şair” sözünün arxasında böyük məsuliyyət dayanır. Mən olsa-olsa şeir və poeziya həvəskarıyam. Bir şairin dediyi kimi, “az-az uydururam yeri gələndə”. Halbuki yazıçı-publisist Fariz müəllim qələm dostunun şeir yaradıcılığı barədə xoş sözlər söyləyir və onun “Bənövşə” adlı şeiri üzərində dayanır. Qeyd edir ki, İdris müəllimin “Bənövşə”si ədəbiyyatımızın yaddaşında hər zaman qalacaqdır.

İdris Hacızadənin “Mən bu həyatdan doymadım”, “İşıqlı ömür”, “Qayıt, əzizim”, “Dünyamızın bəzəyidir insanlar” kimi kitablarının hər biri oxucular tərəfindən maraqla qarşılanır. Müəllifin sonuncu əsəri barədə müxtəlif qəzetlərdə, o cümlədən “Azərbaycan”, “Ədalət”, “Azad Azərbaycan”, “Bakı Xəbər” kimi mətbu orqanlarında dəyərli fikirlər söyləyiblər. Doğrudan da “Dünyamızın bəzəyidir” kitabına daxil edilmiş oçerk və zarisovkalar, esselər, maraqlı müsahibələr, yeni kitablar haqqında rəylər, Milli Məclisin deputatları, döyüşçülərimiz, Milli Qəhrəmanlarımız haqqında zəngin məlumat verən materiallar yazıçının zəngin müşahidə qabiliyyətinin, xüsusi tədqiqatları və şəxsi düşüncələrinin məhsuludur. Bütün bunlar isə kitab müəllifinin dünyanın bəzəyi olan insanları kifayət qədər tanımasından xəbər verir. Doğrudan da kitaba daxil olan yazıları oxuduqdan sonra nə qədər eşitmədiyin və bilmədiyin maraqlı faktlarla tanış olursan! Kitab müəllifinə oxucular tərəfindən daxil olan zənglərdə də belə fikirlər önə çəkilir. Yazıçı, publisistin hələ çapını gözləyən çox kitabı var. Onlardan biri də “...Ürək deyir yaşa hələ” adlı sənədli povestidir.

İdris müəllim tərcümə sahəsində də səriştəsini nümayiş etdirir. Belə ki, tərcümə etdiyi, üzərində işlədiyi tanınmış Norveç dramaturqu B.Byörnsonun məşhur “Redaktor” pyesinin bir neçə Azərbaycan teatr rejissoru səhnəyə qoyulmasını təklif edir.

İdris müəllim 7 ildən artıqdır ki, Azərbaycan Respublikası Təhsil Nazirliyinin mətbu orqanı olan “Təhsil” jurnalında və “Qarabağa aparan yol” qəzetində əməkdaşlıq edir. Onun jurnalda dərc etdirdiyi yazılarda təhsilimizdə aparılan köklü islahatlar, bu sahədə təhsil işçiləri qarşısında duran vəzifələr, qabaqcıl təhsil işçilərinin nümunəvi iş təcrübəsinə həsr olunmuş maarifləndirici materiallar öz əksini tapır. Bundan başqa jurnalın səhifələrində təcrübəli qələm sahibinin apardığı təhlillər əsasında hazırladığı “Narkomaniya əsrin bəlasıdır”, “Azərbaycan xalçaları”, “Azərbaycan tarix muzeyi”, “Maraqlı adamlarla görüşlər”, “Necə yaşayırsan, kənd müəllimi”, “Qaçqın məktəblərimiz” kimi rubrikalar altında maraqlı yazılar da yer alıb. Bura idmanımızın inkişafına, Bakıda keçirilən müxtəlif beynəlxalq yarışlara həsr olunmuş silsilə yazıları da əlavə etmək olar.

Diqqətli oxucu yəqin ki, İdris müəllimin imzasına bizim “Respublika” qəzetinin səhifələrində də rast gəlib. “Azərbaycanın Paqaninisi”, “İlmələrin yaddaşı”, “Məktəbdən ayrıla bilmərəm” və s. başlıqlı yazılar buna misal ola bilər.

Təəssüf ki, İdris Hacızadə mətbuatda 50 ildən çox necə deyərlər, külüng çalsa da, heç bir təltifə layiq görülməyib. Heç özü də buna can atmır. Qələmini işlədir, yazıb-yaradır, heç bir karyera güdmür.

Ahıl jurnalist dostum beləcə ömrünün mübarək 80 yaşına çatıb. Amma qələmi yerə qoymaq barədə fikirləşmir. Deyir ki, hələ tezdir. Hələ ki gözlərim görür, əlim qələm tutur, yaddaşım məni aldatmır, inşallah işimi davam etdirəcəyəm. Görüləsi işlərim, planlarım çoxdur. Ulu Yaradanımdan çox razıyam. Düzdür, həyatda çox əzab görmüşəm, sıxıntılarla üzləşmişəm. Hələ də ev həsrətindəyəm, kirayədə qalıram. Nə edim ki, mənə ev qismət olmur. Hələ ki, ümidlə yaşayıram.

Ümidlə yaşayan İdris Hacızadəni ömrünün 80-ci baharında ürəkdən təbrik edir, bundan sonrakı illərini də sağ-salamat yaşamasını Ulu Yaradandan təvəqqe edib deyirəm: gözün nurdan, əlin qələmdən uzaq düşməsin!

**Ataş CƏBRAYILOV,**
**“Respublika”.**